# Poliqrafçı alim Şəddat Cəfərovun miniatür kitabının təqdimatı keçirilib



Sentyabrın 16-da Miniatür Kitab Muzeyində Azərbaycanın poliqrafçı alimi, naşir, yazıçı Şəddat Cəfərovun "Kitab gözəlliyinin elmi mahiyyəti" miniatür kitabının, həmçinin poliqrafçı alim haqqında nəşr edilmiş əlavə 4 miniatür kitabın təqdimatı keçirilib. Həmin kitablara İsaq Əmənullayevin "Mənalı poliqrafçı ömrü", Sevda Əlibəylinin "İlk poliqrafçı alim", Fatma Həsənqızının "Acılı-şirinli günlər" və Elşad Səfərlinin "Qiymət" poeması daxildir.

AZƏRTAC xəbər verir ki, əvvəlcə erməni təxribatı nəticəsində həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən poliqrafçı alim Şəddat Cəfərov tədbir haqqında ümumi məlumat verərək deyib: "Kitab mədəniyyəti bizim xalqımızın tarixidir. Burada bu gün təqdim olunan kitablar arasında artıq haqq dünyasına qovuşmuş Fatma Həsənqızının "Acılı-şirinli günlər" kitabının miniatür variantı da yer alır. O, bu kitabında mənim haqqımda dəqiq məlumat verib. Ondan sonra Sevda Əlibəylinin "İlk poliqrafçı alim" kitabını qeyd etmək istərdim. Bu kitab da özünəməxsusluğu ilə seçilir. Daha sonra İsaq Əmənullayevin buradakı kitablar arasında olan "Mənalı poliqrafçı ömrü" kitabı da mənim həyatıma həsr olunub. Elşad Səfərli "Qiymət" poemasını qələmə alıb. Bu kitab da özünəməxsusluğu ilə zəngindir. Bugünkü təqdimatda mənim də yazdığım "Kitab gözəlliyinin elmi mahiyyəti" adlı kitab yer alır".

Xalq şairi, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı belə bir tədbirin keçirilməsini yüksək qiymətləndirib. Təqdimatı keçirilən miniatür kitabdan və müəllifdən danışan S.Rüstəmxanlı bu təqdimatın İçərişəhərin çox dəyərli və gözəl yerində keçirildiyini vurğulayıb: "Burada - Miniatür Kitab Muzeyində dünyanın müxtəlif yerlərindən olan müəlliflərin miniatür kitabları və hətta dini kitablar qorunub saxlanılır və sərgilənir. Bu gözəl addımdır. Eyni zamanda, Şəddat Cəfərovun da miniatür kitabı və onun haqqında yazılan digər miniatür kitablar bu gün burda təqdim olunur. Düşünürəm ki, hər yazarın taleyinə miniatür kitabların sırasına düşmək qismət olmur. Ş.Cəfərov özünü ölkə ictimaiyyətinə və ölkəmizin hüdudlarından kənarda istedadlı poliqrafçı alim, ictimai xadim, səmimi və qayğıkeş dost, gözəl ziyalı kimi tanıdıb. Onun başlıca xüsusiyyəti yüksək müşahidə qabiliyyətinə malik qələm adamı kimi bədii yaradıcılıqla məşğul olmasıdır".

Bu cür tədbirlərin əhəmiyyətindən bəhs edən "Söz" jurnalının baş redaktoru, publisist Sevda Əlibəyli Şəddat Cəfərovu 30 ildir tanıdığını qeyd edib: "Ş.Cəfərov işinin peşəkarı olmaqla yanaşı, həm də xeyirxah insandır. Peşəkarlıqla xeyirxahlıq birləşəndə daha çox faydalı olur. Şəddat Cəfərovun leksikonunda bəlkə də "başqası", "yad", "kənar adam" sözləri yoxdur. O, istər yaxın, istərsə də tanımadığı təsadüfi adam olsun fərqinə varmır, köməyə ehtiyacı olan üçün əlindən gələni əsirgəmir. Əminəm ki, onun peşəsi və adı haqqında bundan sonra da yazılacaq. Fəxr edirəm ki, belə bir poliqrafçı alimin adı anıldıqca mənim də onun haqqında qələmə aldığım, burada təqdim olunan "İlk poliqrafçı alim" kitabım yada düşəcək".

"Xalq qəzeti"nin əməkdaşı, Əməkdar jurnalist Tahir Aydınoğlu təqdim olunan kitablar və tədbirin səbəbkarı haqqında öz fikrini bölüşüb: "Ş.Cəfərov peşəsinə bağlı, sənətinin əsl bilicisi, gənc nəslin mənəvi tərbiyəsinə dəstək baxımından böyük əhəmiyyət kəsb edən insanlardandır. Şəddat Cəfərov harada işləyirsə-işləsin, onun haqqında ancaq müsbət fikirlər eşitmək olar. O, 15 yaşından mətbəə işində çalışır. Respublikada bu sahədə ilk və yeganə alimdir. Lakin bununla heç vaxt öyünmür, çox təvazökar insandır".

"Şuşa" qəzetinin baş redaktoru, tanınmış tədqiqatçı-jurnalist Vasif Quliyev Şəddat Cəfərov haqqında danışıb. Bildirib ki, Şəddat Cəfərov təkcə doğma Azərbaycanda deyil, keçmiş SSRİ-də poliqrafiyanın kamil mütəxəssisi kimi tanınıb. Uzaq və yaxın xaricdə mədəniyyəti, elitar davranışı, zəngin təcrübəsi, istər poliqrafiya, istər iqtisadiyyat, istərsə də texnika və texnologiya sahəsində dərin biliyi ilə Vətənimizin başını dik uca edib. Sonradan Bakıya qayıdan Şəddat Cəfərov müxtəlif vəzifələrdə çalışıb.



Şəddat Cəfərovun iş yoldaşı, naşir Mehman Fərzəliyev Ş.Cəfərovun uzun illər Azərbaycan Dövlət Nəşriyyatının baş direktor müavini və direktoru kimi məsul vəzifəni icra etməsindən və bu qurumdakı fəaliyyətindən danışıb: "Ş.Cəfərov yuxusuz gecələri, zəngin elmi mütaliəsi hesabına müstəqil olaraq rəngli kilşelər hazırlamağı öyrənməklə həmkarlarını və mətbəə rəhbərliyini heyrətə salıb, işə başladığı bir neçə ay ərzində altıncı dərəcəli usta adına layiq görülüb və istehsalatdan ayrılmayıb. Ali təhsil alaraq Moskvada aspiranturaya qəbul olub və namizədlik dissertasiyasını müdafiə edərək yüksək zirvələrə nail olub. O, həm gözəl insan, həm də gözəl yoldaşdır".

Tədbirin sonunda iştirakçılar tədbirin keçirilməsində yaradılan şəraitə görə Miniatür Kitab Muzeyinin rəhbərliyinə və əməkdaşlarına təşəkkürünü bildiriblər.

*Emil* Məlikov ,
*AZƏRTAC*

*Bakı, 16 sentyabr, 2022*